# 2009-cu ilin «Uşaq ili» elan edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə **qərara alıram:**

1. 2009-cu il Azərbaycan Respublikasında «Uşaq ili» elan edilsin.

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Statistika Komitəsi və digər aidiyyəti qurumlarla birlikdə 2009-cu ilin «Uşaq ili» elan edilməsi ilə bağlı tədbirlər planını bir ay ərzində hazırlayıb təsdiq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 22 dekabr 2008-ci il***

***№ 103***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (23 dekabr 2008-ci il, № 286) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 2008-ci il, № 12 (138), maddə 1095) («VneshExpertService» LLC).***

© *VneshExpertService LLC*